**Ədalət**. - 2020.- 11 iyul. - № 93. - S. 12.

# Azərbaycan türklərinin deportasiya hüquqları tanınmalıdır

**Vaqif Abışov,**
Tarix üzrə elmlər doktoru

Tarixdən məlumdur ki, xalqımız dəfələrlə deportasiya və soyqırımlara məruz qalıb. XIX-XX yüzilliklər boyu azərbaycanlılar öz doğma torpaqlarından dəfələrlə deportasiya olunmuş və soyqırıma məruz qalmışdılar. Əgər bu deportasiya və soyqırımları həyata keçirənlər ermənilər olmuşdursa, onların maddi, siyasi və hərbi havadarları Rusiya olmuşdur. Bu proses bu gün də davam etməkdədir.

SSRI-də XX əsrin 50-ci illərin ikinci yarısından başlayaq, deportasiya olunmuş xalqlar haqqında yazılmağa, onlara bəraət hüquqlarının verilməsindən bəhs olunmağa başlayanda, azərbaycanlıların deportasiyasından bir cümlə belə yazılmırdı. Sanki 100 minə kimi Azərbaycan türkü Ermənistan SSR ərazisindən başqa Respublikanın ərazisinə zorla köpçürülməmişdir. Yalnız SSRİ dağılandan sonra yalnız Azərbaycan tarixçiləri tərəfindən problemlə bağlı əsərlər yazılmağa başlandı. Geniş arxiv materiallarından istifadə edən çağdaş Azərbaycan tarixçiləri azərbaycanlıların deportasiya olunması mövzusuna müraciət etməyə başladılar. Arxiv sənədləri ilə tanış zamanı ortaya acı bir mənzərə çıxartmış oldu. On minlərlə azərbaycanlı öz daimi yaşadığı ata-baba torpaqlarından, zorla, yalnız daşına bilən əmlaklarının bir qismini götürməklə, özgə bir respublikanın ərazisinə köçürülmüşlər. Arxiv sənədləri sübut edir ki, ikinci dünya müharibəsindən dərhal sonra Sovet hökumət rəhbərləri İ.V.Stalin, Suslov, Mikoyan və başqaları ermənilərin məkrli planlarına yaxından və bilərəkdən köməklik edərək 1947-1953-cü illər ərzində Ermənistan SSR-də, öz doğma torpaqlarında yaşayan azərbaycanlılar kütləvi surətdə deportasiya edilmişdir. Azərbaycan SSR-yə deportasiyası zamanı, demək olar ki, onların bütün daşınmaz əmlakları orada qalmışdır. İnsanları yük vaqonlarında Azərbaycan SSR-nin müxtəlif rayonlarına gətirilmişdilər.

Bu zaman onların yaşadığı əvvəlki təbii-coğrafi şərait nəinki nəzərə alınmamış, hətta körüldükləri yerlərdə adi yaşayış üçün minumum şəraitin belə olmadığı ortaya çıxmışdır. Axı bu insanların günahı nə idi. Nəyə görə 10 minlərlə insan öz yurd-yuvalarından zorla çıxarılmış və didərgin salımışdılar. Əldə olunmuş arxiv sənədləri sübut edirdi ki, azərbaycanlıların öz yurd-yuvalarından zorla çıxarılaraq başqa respublikanın ərazisinə köçürülməsinin əsas səbəbi Sovet və erməni dövlət adamlarının qabaqcadan hazırlamış olduqları məkrli planın tərkib hissəsidir. Yəni qısası, "türksüz Ermənistan” planını həyata keçirmək üçün Ermənistan SSR-dən Azərbaycan türkləri öz ata-baba yurdlarından qovulmalı idi. Ona görə də həmin illərdəki, yəni 1947-1953-cü illərdəki deportasiyaya sovet dövlət adamları, Ermənistan rəhbərləri və həmin dövrün dövrü mətbuatı müxtəlif don geyindirməyə çalışmışdılar.

10 minlərlə insanın öz doğma yurdlarından, heç bir ciddi səbəb olmadan, zorla deportasiyasına nə ad verirsən-ver, yenə də bu addım insanlığa qarşı çox böyük cinayətdir, qanunsuzluqdur, onların yaşamaq hüququnun kobud surətdə pozulmasıdır. Sovet dönəmində bu deportasiya hadisəsi Azərbaycan xalqından və dünya ictimaiyyətindən gizli saxlanılmışdır.

Həmin günlərdə çəkilmiş bir sıra kinoxronikaya baxarkən, insanı dəhşət bürüyür: Kinoxronikada insanların yük vaqonlarına doldurularaq başqa bir respublikaya gətirilməsi və orada, stansiyada onları zurna-qavalla qarşılanması əks olunur. Sovet təbliğatı insanlığa zidd siyasətini "humanist” görüntülərlə ört-basdır etmək fikrində idi. Lakin sovet imperiyasının çöküşündən sonra onların bu vəhşi əməlləri üzə çıxmış oldu.

Ermənistan SSR-dən deportasiya olunan azərbaycanlılar haqqında əsl tarixi həqiqətlər 70 illik qadağandan sonra, nəhayət ki, Şimali Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra yazılmağa başlanmışdır. Müəllif əsərin giriş hissəsində özündən öncəki tarixçilərin yazmış olduqları elmi-tədqiat əsərlərini təhlil edərək onları yüksək qiymətləndirmişdi.

İndiyə kimi problemlə bağlı yazılmış əsərlərdən "Didərginlər”. Bakı: Gənclik 1990, 384 s., Məmmədov İ. Əsədov S. "Ermənistan azərbaycanlıları və onların acı taleyi. B., "Azərbaycan”, 1992, 72 s., "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası”. Bakı: Gənclik, 1995, 464 s., Paşayev A. Ə. Köçürülmə. Bakı: Gənclik, 1995, 40 s., "Deportasiya”. Bakı: Azərbaycan Ensiklopediyası, 1998, 440 s.; Vaqif Arzumanlı və Nazim Mustafanın "Tarixin qara səhifələri. Deportasiya, Soyqırım, Qaççınlıq” (Bakı: "Qartal” nəşriyyatı, 1998, 280 s.), Həsənova L.L. 1948-1953-cü illərdə azərbaycanlıların köçürülməsinin sovet deportasiya tarixində yeri. // Konfrans materialları. Deportasiya. 1998, s 96-102., Qasımov C. Repressiyadan deportasiyaya doğru. Bakı: Mütərcim, 1998, 287 s., Nəcəfov B. "Deportasiya”. Bakı: Çaşıoğlu, 1998, 214 s., "Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər) (sənədlər toplusu- A.Ə.Paşayevin redaktorluğu ilə)” B., "Zərdabi LTD” MMS, 2013,784 s.” və başqa bu kimi əsərləri göstərmək olar. Yuxarıda qeyd olunan əsərlərin sırasına tədqiqatçı alim Qurbanlı Əsədin "Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası tarixindən (1947-1953-cü illər)” adlı monoqrafiyası da əlavə olunub.

Tədqiqatçı alim, 20 ildən çox AMEA-nın Tarix İnstitutunda bir şöbədə işlədiyim Qurbanlı Əsədin 2018-ci ildə işıq üzü görmüş olduğu kitabı haqqında yazacağım məqaləni gecikmiş hesab etmirəm. Düşünürəm ki, elə tarixi mövzular var ki, onlar həmişə aktualdır. Deportasiya məsələsinin də Azərbaycan tarixində xüsusi yeri var. Bu yer şərəfli yer olmasa da, hər halda ən yeni tariximizin bir hissəsidir.

Tarix üzrə fəlsəfə doktoru, dosent Ə.Qurbanlı "Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası tarixindən (1947-1953-cü illər)" adlı elmi-tədqiat əsərində, haqlı olaraq soydaşlarımıza qarşı yönəlmiş deportasiya siyasətinin uzun illər özünün əsl siyasi, tarixi, elmi qiymətinin almamasını, özünün obyektiv təhlilini və izahını tapmadığını qeyd edir.

Çox təəssüflər olsun ki, bu günə kimi deportasiya olunmuş bir çox xalqlara bəraət verilsə də, 1947-1953-cü illərdə deportasiya olunmuş soydaşlarımıza şamil edilməmişdir.

Tarixi sənədlərdən məlumdur ki, sovet dövründə azərbaycanlılar ən çox deportasiyaya Ermənistan SSR-nın ərazisində məruz qalmışdır. 1920-ci ilin aprel ayının 28-də Şimali Azərbaycan sovet-rus qoşunları tərəfindən işğal olunduqdan sonra azərbaycanlıların Ermənistan ərazisindən sistemli şəkildə, Sovet dövlət rəhbərlərinin, bilavasitə yaxından köməkliyi ilə, deportasiyası başlanmışdır və 1991-ci il noyabr ayının 8-də Ermənistan SSR-nin Nüvədi kəndindən sonuncu azərbaycanlıların deportasiya olunması ilə başa çatmışdır.

Məlumdur ki, 1947-1953-cü illərdə Ermənistan ərazisindən azərbaycanlılar öz əzəli torpaqlarından məqsədli şəkildə deportasiya olunmuşdular. Ermənilər çoxdan bəri arzuladıqlarını həyata keçirmək üçün ən əlverişli şəraitin yetişdiyi məqamda fəaliyyətə keçmişdilər. Azərbaycan türklərinin deportasiya olunması erməni siyasətçilərinin çoxdankı planı idi. Yəni ermənilər Azərbaycan torpaqları hesabına özlərinə dövlət qurduqdan sonra (1918-ci il 29 may) "türksüz Ermənistan" yaratmaq planını işləyib hazırlamışdılar. Bu planın ilk böyük icrası, fikrimizcə, 1947-1953-cü illərdə həyata keçirilmişdir.

1956-cı ildən sonra SSRİ-də deportasiya olunmuş xalqların öz əvvəlki yerlərinə qayıtmaq hüquqları tanınmışdır. Lakin azərbaycanlıların bu hüquqları tanınmamışdır. Müəllif haqlı olaraq qeyd edir ki, Sovet deportasiya tarixinə dair tədqiqatlarda və SSRİ Ali Soveti 1989-cu ilin noyabrında məcburi köçürülməyə məruz qalmış xalqlara qarşı repressiya aktlarının qeyri-qanuniliyi və cinayətkarlığının etiraf olunması və onların hüquqlarının təmin edilməsi haqqında bəyannamədə azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası haqqında, demək olar ki, bəhs olunmur.

Neçə ola bilər ki, 100 mindən çox insanı, razılığı olmadan öz doğma torpaqlarından zorla çıxarıb başqa bir respublikanın ərazisinə köçürəsən, sonra bu addımı deportasiya kimi qəbul etməyəsən.

Sovet hakimiyyəti illərində soydaşlarımıza qarşı həyata keçirilmiş deportasiyanın heç bir ciddi əsaslara söykənməyən, qərəzli siyasətin nəticəsi idi. Qurbanlı Əsədin əsərini oxuyarkən yuxarıda qeyd olunan amillərin əsl səbəbləri çoxsaylı arxiv sənədləri, eləcə də elmi-tədsqiqat əsərlərindən istifadə etməklə açılıb göstərilir. Müəllif əsərin birinci, ikinci və üçüncü fəsllərində Azərbaycanlıların deportasiyasını doğuran şəraitə və səbəblərə aydınlıq gətirməyə çalışıb. Əsərin dördüncü fəslində isə, konkret olaraq, azərbaycanlıların deportasiya məsələsindən bəhs olunur.

Ə.Qurbanlı tərəfindən çoxsaylı arxiv sənədlərinin və elmi-tədqiat əsərlərinin təhlil olunması nəticəsində sübut olunur ki, həqiqətən də Azərbaycan türkləri ata-baba torpaqlarından deportasiya edilməsinin əsasa səbəbi iqtisadi deyil, siyasi səbəblərlə bağlı olmuşdur. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSRİ-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında"kı 1947-ci il 23 dekabr tarixli qərarı ermənilərin aborgen türk əhalisinə qarşı etnik təmizləmə siyasətinə yenidən yol açmış oldu.

1948-1953-cü illərdə aərbaycanlıların deportasiya olunmasının xronikasına qısa nəzər salaq: 1948-ci ildə 10 min nəfər, 1949-cu ildə 40 min nəfər, 1950-ci ldə isə 50 min azərbaycanlının köçürülməsi nəzərdə tutulurdu. Əslində bu köçürülmə Ermənistandakı azərbaycanlı əhali üçün gözlənilməz olmuşdur. Sovet hökumət başçılarından bir soruşan olmadı ki, nə idi bu insanların günahı. Hansı səbəbdən Azərbaycan türklərini minilliklləboyu yaşadıqları doğma torpaqlarından qovursunuz. Bəlkə ikinci dünya müharibəsi illərində Azərbaycan xalqı Sovet dövlətinə daha çox neft və neft məhsullsrı, pambıq, taxıl və s. məhsulları verdiyinin əvəzində ona "mükafat" verilirdi. Nə isə.

Ə.Qurbanlının əsərini oxuyarkən bu köçürülmənin əsas səbəblərinə də müəyyən etməyə imkan verir: 1) Azərbaycan türklərinə qarşı tarixi-etnik düşməçilik; 2) "türksüz Ermənistan" yaratmaq; 3) etnik təmizləmə; 4) Ermənistan SSR rəhbərlərinin, erməni kilsəsinin və erməni siyasi təşkilatlarının təhrikedici, rəhbəredici və aktiv hərəkətləri; 5) azərbaycanlıların deportasiyası Sovet deportasiyasının məntiqi davamı olması; 6) Kremlin siyasi dairələrində erməni lobbisinin fəaliyyəti; 7) ikinci dünya müharibəsindən sonrakı illərində Sovet-Türkiyə münasibətləri kontekstində rəsmi Kremli tərəfindən siyasi gündəmə çıxarılmış "erməni məsələsi" ilə qırılmaz surətdə bağlılığı və s."

Müəllif haqlı olaraq qeyd edir ki, Sovet İttifaqının Türkiyəyə qarşı ərazi tələbləri, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və Azərbaycan türklərinin tarixi-etnik torpaqlarından kütləvi deportasiyası bir-biri ilə sıx bağlı məsələlər olduğundan onların kompleks şəkildə tədqiqini məqsədəuyğun hesab etmişdir.

Üstündən 70 ildən çox keçməsinə baxmayaraq, bu gün də azərbaycanlılar o illərin deportasiyasının ağrısını-acısını yaşamaqdadır.

Azərbaycanlıların öz Ata-Baba yurdlarına, indiki Ermənistan Respublikasına (Qərbi Azərbaycana) qayıtmaları üçün daimə mücadilə aparmalı və təşkilatlanmalıdır. Lakin bu mücadilə və təşkilatlanmalarla bərabər, azərbaycanlıların öz doğma torpaqlarından qanunazidd olaraq köçürülməsi ilə bağlı daha çox əsərlər yazılmalı, həmin əsərlər dünyanın müxtəlif dillərinə tərcümə olunmalı və dünya ictimaiyyətinə və beynəlxalq təşkilatlara çatdırmalıdır.

Biz deportasiya olunmuş soydaşlarımızın hüquqlarının müdafiə edərkən hər hansı ölkədən imdad gözləməməliyik. Başqa xalqların deportasiya olunması dünyada tanındığı kimi, Azərbaycan türklərinin də Emənistan SSR-dən deportasiya olunması hüququnun tanınması və dünyanın əsl həqiqətləri bilməsi üçün canidildən çalışmalıyıq.

Biz, çağdaş Vətən tarixçilərinin problemlə bağlı yazmış olduqları elmi-tədqiqat əsərlərini, o cümlədən Qurbanlı Əsədin "Azərbaycanlılrın Ermənistan SSR-dən deportasiyası tarixindən (1947-1953-cü illər)" monoqrafiyasını dəyələndirməklə yanaşı, 1947-1953-cü illər deportasiyasının səbəb və nəticələrinin araşdırılmasını davam etdirməliyik.